Unudulmaz sənətkarlarımız

# O, səhnədə quş kimi uçurdu

**Əminə xanımı bir Azərbaycan filmində – Qazaxda toy mərasimində görmüşdüm. Rejissor Niyazi Bədəlovun filmi idi. Əminə xanım doğma kəndlərində toy mərasimindəki rəqsi unudulası epizod deyil. Rəqqasə quş kimi qanad çalır. Ətraf lal sükuta bələnib. Sonra isə ardı kəsilməyən alqışlar.**

Bu quş qanadlı rəqqasə 1919-ci ildə Qazaxda anadan olub. İlk təhsilini Bakıdakı 132 saylı məktəbin, əvvəl Azərbaycan, sonra isə rus bölməsində alıb. Lakin o, gözlənilmədən ağır xəstəliyə tutulub və bir müddət məktəbdən ayrılıb. Bir az sağalanda həkimlərin qadağasına baxmayaraq, təhsilini davam etdirib.

Bir gün məktəbin direktoru onu yanına çağırıb bir ünvana getməyi tapşırıb. Ünvana çatıb görüb ki, uşaqlar tarın, kamançanın müşayiəti ilə rəqs edirlər. Növbə ona çatanda soruşublar: “Hansı havaya oynayacaqsan?” Qəfil təklifdən özünü itirməyən Əminə “Obsa” adlı havanı sifariş verib. Ona deyiblər ki, belə rəqs yoxdur. Onda özü sifariş etdiyi mahnını oxuyub oğlansayağı oynamağa başlayıb. Bir də fərqinə varıb ki, zalda alqış səsindən qulaq tutulur.

Üç-dörd gün sonra onu yenidən direktorun otağına çağırıb rəqsini bəyəndiklərini, yeni yaradılan rəqs ansamblına qəbul olunduğunu bildiriblər. Razılaşmaq istəmədiyini gördükdə isə ona hər ay 400 manat təqaüd verəcəklərini deyiblər. Əminənin anası o zaman ailəni dolandırmaq üçün üç yerdə işləyirdi. O, təqaüdə görə deyilənlərə razı olub.

Ali təhsil almasa da, Əminə Dilbazini xalq rəqslərinin mahir ifaçısı kimi tanıyıblar. O, Üzeyir Hacıbəylinin musiqisi əsasında “Kolxoz çölləri“ adlı ilk rəqsini qurub. Rəqsdə o vaxt çox məşhur olan pambıqçı Bəsti Bağırova rolunu Əminə Dilbazi özü oynayıb.

Bir gün Üzeyir bəyin konsertdən sonra Əminə xanımı görmək istədiyini bildiriblər. “Dedim, getmərəm. Qorxurdum ki, Üzeyir bəy rəqsimi bəyənməz. Deyər, sənin belə şücaətin var ki, mənim musiqimə rəqs qurursan? Yoldaşlarım məni



ürəkləndirdilər. Qılman Salmanovla birlikdə getdik Üzeyir bəyin yanına. Üzeyir bəy məni görən kimi dedi: “Balaca qız” – o, mənə belə müraciət edirdi – “sən mənə tanış gəlirsən”. O, anamın 1928-ci ildə məni və bacımı yanına gətirməsini nəzərdə tuturdu. Üzeyir bəy mənə “Balaca qız, sən istedadlısan, mənim musiqimə gözəl rəqs qurmusan. Rəqs qurmağa davam et” – dedi. Dahi bəstəkar oradaca zəng vurub tapşırdı ki, mənim rəqsimi dövlət konsertinə salsınlar. Bu hadisədən çox həvəsləndim. Qısa müddətdə Niyazinin musiqisinə “Dağlar gözəli”, Qılman Salmanovun musiqisinə isə “Alagöz” rəqslərini qurdum.

Əminə Dilbazi filarmoniyada işləyəndə konsertlər bitəndən sonra səhnədə təkbaşına öz mahnılarını rəqs edən zaman bəstəkar Qara Qarayev pərdəni qaldırıb onun məşqlərinə baxıb. Cövdət Hacıyev bunu görüb ona yaxınlaşır. Q.Qarayev ona Əminəni göstərib deyir, gör, o qırmızı çəkməli qız necə gözəl rəqs edir! Sən demə, Cövdət bəy Əminəni sevirmiş. Odur ki, həmin gün sevgisini izhar edib. Fikrət Əmirovun dəvəti ilə getdikləri Gəncə səfərindən geri döndükdə Cövdət onu vağzaldan birbaşa „ZAQS“-a aparıb. Beləcə, evləniblər. Nikah mərasimində Səməd Vurğun və Mirvarid Dilbazi iştirak ediblər. Bu evlilikdən Cövdətlə Əminənin dörd övladı olub...

Əminə Dilbazi 1947-ci ildə Praqada keçirilən gənclərin və tələbələrin I Ümumdünya festivalının, 1957-ci ildə Moskvada keçirilən VI Ümumdünya festivalının iştirakçısı olub. 1954-cü ildə Əməkdar artist, 1959-cu ildə Xalq artisti fəxri adlarına layiq görülüb, 1999-cu ildə “İstiqlal” ordeni ilə təltif edilib. Uzun illər Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında qızlardan ibarət qrupun rəhbəri olub. 1959-cu ildə Azərbaycan Tibb İnstitutunun nəzdində yaradılan “Çinar” tələbə rəqs kollektivinə, 1967-ci ildə Azərbaycan Dövlət Filarmoniyası nəzdindəki “Sevinc” qızlar ansamblına rəhbərlik edib. İncəsənət Gimnaziyasında “Günel” rəqs qrupunu yaradıb.

“Vağzalı”, “Turacı”, “Tərəkəmə”, “Naz eləmə”, “İnnabı” və başqa rəqsləri məharətlə ifa edən rəqqasənin repertuarına rus rəqsləri, Ukrayna rəqsləri, özbək rəqsləri, ərəb rəqsləri də var idi. “Leyli və Məcnun”, “Arşın mal alan”, “O olmasın, bu olsun” və başqa əsərlərdə də rəqslərə quruluş verib.

Bu gün Əminə xanım aramızda olmasa da, əziz xatirəsi sənətsevərlərin qəlbində yaşayır. Onun səhnədə quş kimi səkdiyi səhnələr çoxlarının yadındadır.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***